## BULAT İBRAHİM

**Bulat Xəkim oğlu İbrahim**

*19 oktyabr 1990-cı ildə* TATARISTAN Respublikas*ının Layeş elinin Atabay kəndində doğulub. KDU-nun Tatar filologiyası və Tarixi fakultəsini bitirdikdən sonra, orada aspiranturaya qəbul olub. Təhsil müddətində, "Əllüki" Ədəbi-bədii yaradıcılıq dərnəyinin başqanı, habelə tələbə qəzeti "Tərəzə"nin ("Pəncərə") müxbiri olub. Respublika şeir yarışmalarının, şeir şölənlərinin qalibi olub; eləcə də, Səcidə Süleymanova adına ədəbi təqaüdə layiq görülüb. Hazırda Ümumdünya Tatar Konqresi İcra Komitəsinin məsul katibidir.*

*İlk şeirlər toplusu "Balıq dili" adlanır. TaYB-nin üzvüdür.*

### *DOSTLAR GEDƏNDƏN SONRA və ya ŞEİRLƏ ÇAY SÜFRƏSİ...*

*1.*

Ax, bu sənsənmi, dostum,
keç, qapını bağla;
gir evə, qoy heç kimsə gəlməsin...
Əhvalın necədir?
bu dəfə nə gətirmisən –
sevincmi, kədərmi?..
Necədir həyatın –
bugün nə deyir gələcəkdən?
keç yuxarı başa,
otur, çay içək.
Eşitməkçün, danışmaqçün
çoxlu boş sözlər yığılıb...
Qapını bağladınmı?
get, bir də yoxla;
həə... döşəmə, tavan və qapı
təhlükə qoxuyur...
bağladınmı?
Lap yaxşı,
yaxın gəl,

çayını təzələyim,
fincanlarımızı qaldıraq
gələcəyin sağlığına..!

Bu kimin kölgəsidir? –
Tanrım,
o məni necə qorxutdu..!
sən bugünü soruşursan?
eh, elə həminkidi...
Pəncərəyə bax,
gör hələ də yaydımı?
Deyirsən, qorxmayım?
Mən bilirəm
yaydan sonra
qızılı payız gəlir.
Deyirsən ki, noolsun? –
bu belədir
bildiyin şeyləri
çox vaxt düzəltmək olmur...
Çay süzümmü?
Qənd at,
bir az da çox...
çox vaxt olur ki,
Hətta sözlərdən qaçırsan
tavan, döşəmə və qapı
təhlükə qoxuyur...
amma fikirlər beyində haçalanır...

*2.*

Bəli, bəli... eşitdim
dan necə sökülürdü,
adətincə, gecədən sonra
günahların yuyulması üçün
camelərdə ianə paylanandan,

kilsələrdə günahların etirafından,
ruhların
   qaranlıqdan arınmasından sonra...
Onları yenə də gecə gözləyir.
Yenidən...
Mən deyirəm:
nə deyəcəksən?
nə baş verir dünyanda?
Şəffaflıqmı, təmizlikmi?
ya da qaranlıqlar və hikkəmi
dostların xəyanətimi?
Qızıl ruhdan daha bahamı oldu?
Çox təəssüf
Sevgi səhər şehi qədər yaşayır..!
Ürəklər qırılıbmı?
Ax, dostum mənim, ax..!
Deynən, yox..!
Deynən, göylər günəşlidir..!
De, noolar..?
Qapılar bağlıdır, elə deyilmi?
Dillənsənə bəs..!
Bir... utancaq şeir
bu gün qonaqdır..!
Bizsə üçümüzük:
mən, şeir, isti çay...
Yanımızda mürgüləyir casuslar:
- döşəmə, tavan və qapı..!

**(SƏHƏR ƏHMƏD *çevirib.*)**